# Xəzərlər qədim türk tayfasıdır

## *Yaxud Elxan Zal Qaraxanın araşdırması barədə qeydlər*

**Cənubi Qafqazdan başlayaraq Xəzər və Qara dənizləri boyunca, İtil (Volqa) çayı ətrafındakı ərazilərdən Dunay çayına qədər uzanan geniş bir coğrafiyanı bir neçə əsrə yaxın öz hakimiyyəti altında saxlamış türksoylu Kağan imperiyası özündə türk tarixinin növbəti yüksəliş və inkişaf mərhələlərindən birini təcəssüm etdirir.**



Böyük Türk Kağanlığının Şərq ərazilərində meydana gələn və onun davamı hesab edilən, göytürklərin qurucuları Aşina sülaləsindən olan kağanlar tərəfindən yönəldilən Xəzər Kağanlığı dünyanın əksər böyük tədqiqatçıları tərəfindən Orta əsrlərin ilk çağlarında mövcud olmuş ən möhtəşəm dövlətlərdən biri hesab edilir.

Qədim dünya salnaməçilərindən tutmuş müasir dövrümüzün tarixçilərinə qədər çoxsaylı tədqiqatçılar xəzərlərin tarix səhnəsinə haradan gəldiyini və bu səhnədən nə zaman və hara getdiyini aydınlaşdırmağa çalışıblar. Xəzərlərin etnik kökəni, dili, imperiyaya daxil olan digər xalqlarla olan qarşılıqlı münasibətləri, yəhudi dinini qəbuletmə səbəbləri barədə mülahizələr bir çox tədqiqatlarda bəzən çox dərin ziddiyyətlər təşkil edir.

Müasir Azərbaycanın da şimal-şərq hissəsini əhatə etməklə Şimali Qafqaz ərazisində mövcud olmuş Kağan imperiyası və onun qurucuları olan qədim xəzərlər təbii olaraq azərbaycanlı tədqiqatçıların da maraq çərçivəsindən heç vaxt kənarda qalmayıb. Bu da təbiidir, çünki xəzərlərin və onların dövlətinə daxil olan sabir, barsil, bulqar tayfalarının Azərbaycan türklərinin etnogenezinin formalaşmasında yer alması artıq tədqiqatçılarda heç bir şübhə doğurmur.

Sonsuz ehtimallar, fərqli elmi mülahizələr və iddialar mövzusu olan xəzərlər haqqında Azərbaycan yazıçısı Elxan Zal Qaraxanın rus dilində yazdığı “Хазарский простор” (“Xəzər məkanı”) adlı tədqiqat əsəri də bu problemin dərk edilməsinə böyük töhfə verəcək çox dəyərli bir elmi araşdırma işidir.

Elxan Zal xəzərlərlə bağlı tədqiqatlarına başlayandan bəri biz onunla bu mövzuda dəfələrlə geniş polemikalar aparmışıq, əsərin dili və araşdırma istiqamətləri ilə bağlı fikir mübadiləsi etmişik. Bu təmaslar zamanı Elxan müəllim mənə bildirmişdi ki, o əslində xəzərlərlə bağlı bədii əsər yazmaq istəyirdi, lakin bu mövzuya dair materiallar yığarkən, xüsusən “etrusklarla” bağlı araşdırmalar apararkən əldə etdiyi sənədlərdən belə qənaətə gəlmişdi ki, xəzərlər Azərbaycan və ümumən türk xalqları tarixində müstəsna rol oynayıblar və onların bu rolu barədə dünya türkologiyasında, eləcə də xəzərşünaslıqda son söz hələ deyilməyib.

Elxan Zalın “Xəzər məkanı” əsərini dünya çapında yazılan və nəşr edilən əksər əsərlərdən fərqləndirən əsas cəhəti odur ki, o öz araşdırmalarında V. de Sen Marten, B. Nibur, K. Neman, N. Veselovski, K. Patkanov, A. Krımski kimi ünlü elm adamlarının xəzərlərlə bağlı düşüncələrinə və araşdırmalarına dayanaraq xəzərlərin tarix səhnəsinə çıxışını və Azərbaycanla bağlılığını bizim eranın ilk əsrlərində deyil, Herodot zamanlarında və daha öncəki dövrlərdə arayır.

A.Krımski “Xəzərlərin tarixi” monoqrafiyasında Herodotun təsvir etdiyi katiarların və basillərin Xəzər İmperiyasını yaradan xəzər və barsillərin əcdadları olmaqla yanaşı, dövrün elmi trendinin əksinə olaraq, onların iran əsilli deyil, türk əsilli olduqlarını göstərmişdir. Təəssüflər olsun ki, bu böyük alim 1941-ci ildə Stalin rejimi tərəfindən qətlə yetirildi və onun xəzərlərlə bağlı əsərinin uzun zaman elmi ədəbiyyatda (D. Danlop, O. Pritsak) adı çəkilsə də, özünü tapmaq mümkün deyildi.



Yalnız 2008-ci ildə A. Krımskinin əsəri “Xazarı” dərgisində Ukrayna dilində nəşr edildi və beləliklə müasir tədqiqatçılar üçün çox dəyərli bir elmi mənbəyə çevrildi. Zənnimcə, Elxan Zalın “Xəzər məkanı” əsərini A. Krımskinin “Xəzər tarixi”nin bir növ davamı da hesab etmək olar.

İskit tayfalarına aid olunan xəzərlərlə bərabər hunların, saklaların, sabirlərin-savromat-sarmatların da tarixi dislokasiyaları, Qara dəniz və Xəzər dənizi hövzəsində, Şərqi Avropa - Mərkəzi Asiya arealında tarixi yerdəyişmələri geniş və hərtərəfli təhlilə cəlb olunur.

Əsərdəki maraqlı epizodlardan biri də Ktesiy və Herodotun Midiya ilə bağlı nəql etdikləri bir-biri ilə uzlaşmayan tarixi hadisələrin müqayisəsidir. Müəllif sadəcə mətnləri müqayisə etmir, mətnlərdə istifadə olunmuş müxtəlif terminlərin, etnonimlərin, toponimlərin, hidronimlərin linqvistik – fonetik müqayisəsini aparır, fiziki-coğrafi koordinatları dəqiqləşdirir, həmin tarixi dövrlər üçün xarakterik olan siyasi təsisatların iyerarxiyasını araşdırır, oxşar və fərqli, bəzən də eynilik təşkil edən elementləri ayırd edir.

İskitlərlə göytürklərin və xəzərlərin qarşılaşdırılması nəticəsində digər qövmlərlə bərabər, xəzərlərin də Azərbaycan etnogenezinin formalaşmasında mühüm rol oynadığını ortaya qoyur və Azərbaycan toponiminin “Atropatkan”, “Atropatena” kimi təhrif olunmuş adlardan deyil, qədim Avesta dilindəki “Xazarvayja” (Xəzər məkanı) terminindən yaranması mülahizəsini irəli sürür.

Xəzərlərin tarixinə təkcə Kağan imperiyasınının dövrünə istinadən yox, daha dərindən etno-genetik müstəvidə baxan müəllif özündən sonra zəngin irs saxlamış etrusk, iskit, türk, monqol tayfalarının tarixinə müraciət edir. Çünki xəzərlərin bilavasitə bu mədəniyyətlərlə qarşılıqlı əlaqələrdə olması onda heç bir şübhə doğurmur. Köçəri sivilizasiyaların yaşam tərzi, təşkilatlanma prosesləri, ilkin dövlətçilik elementlərini ayırd etmək, idarəçilik iyerarxiyalarının oxşar və fərqli cəhətlərini üzə çıxarmaqla Elxan Zal bir-birinin davamı olan qədim köçəri sivilizasiyaların rəngarəng mozaikasında xəzərlərin yerini və rolunu dəqiqləşdirməyə çalışır.

Qədim tayfaların 3 pilləli idarəçilik sisteminin daha sonra 4 pilləli dövlət idarəçiliyi sisteminə təkamülünü və bu proseslərdə müxtəlif soylu tayfaların qarşılıqlı təsir mexanizmlərini araşdırır. Müəllif qədim türklərin 12 tayfa ittifaqından ibarət idarəçilik sistemini təhlil edir və etrusklarda, iskitlərdə, göytürklərdə və xəzərlərdə də cəmiyyətin eyni prinsiplər əsasında strukturlaşmasını və eyni prinsiplər əsasında təşəkkül tapmış tayfa ittifaqlarına malik olduğunu diqqət mərkəzinə gətirir.

Müəllif belə hesab edir ki, bu qarşılıqlı təsir təkcə idarəetmə quruluşlarındakı oxşarlıqla məhdudlaşmır, eyni zamanda tayfaların dini inanclara meyllərində də öz əksini tapır. Tarixdən məlumdur ki, xəzərlər dini inanclarının müxtəlifliyi ilə seçilirdilər. Xristianlıq, islam, iudaizm, şamançılıq və tanrıçılıq xəzərlərin və onların qurduqları dövlətdə məskunlaşan digər xalqların sitayiş etdikləri müxtəlif dinlər olub. Xəzərlərin uzun müddət Ərəb xilafəti ilə gərgin münasibətlərdə olması isə bu mövzuda yazan bir çox müəlliflər tərəfindən IX əsrə doğru onların daha çox iudaizmə meyllənməsinin səbəbi kimi göstərilir.

Bizim eradan əvvəl Midiyada uzun zaman kəsiyində hakimiyyət qurmuş xəzərlərlə, həmin ərazidə yaşayan qədim yəhudilərin qarşılıqlı əlaqələrini təhlil edən müəllif, türksoylu xəzər tayfasının elitasının “yəhudiləşməsini” qədim türklərin imperiya dini olan tanrıçılıqla qədim yahudi tayfaları və onların həzrəti Musadan gələn dini inanclarının arasında dərin keçmişə dirənən bağların olması ilə izah edir. Bildiyimiz kimi, yəhudilər xristianlıqda və İslamda olduğu kimi öz dinlərini başqa xalqlar arasında yaymırlar, iudaizmin ehkamlarına görə yalnız etnik yahudilər bu dinə sitayiş edə bilər.

Bu baxımdan tarixdə yalnız bircə presendent var ki, türksoylu xəzərlər yəhudi dinini qəbul ediblər və bu prosesdə yəhudi din xadimləri-xaxam və ravvinlər də fəal iştirakçı olublar. Bununla bağlı Orta əsrlərdən bəri onlarca, bəlkə də yüzlərlə tədqiqat əsərləri yazılıb, amma hələ də iudaizmin xəzərlər arasında yayılması ilə bağlı yekdil fikir yoxdur. Əlbəttə, Xəzər dövləti tarixinin dünya alimlərində belə böyük maraq doğurmasının səbəbləri çoxdur.

Zənnimcə, əsas səbəblərdən biri də onların şanlı keçmişi ilə yanaşı, həm də bu dövlətin elitasının bir əsrə yaxın müddət ərzində yəhudi dininə etiqad etməsi olub. Müasir İsrail tarixçiləri arasında da bu fikri dəstəkləyənlər var. Özündən əvvəl bir çox ünlü elm adamlarının bu mövzu ilə bağlı düşüncələrindən sitatlar gətirən Elxan Zal, özü də bu istiqamətdə ortaya yeni mülahizələr qoyur və bu mülahizələri tarixi sənədlərlə əsaslandırmağa çalışır.

Əsərdə yaşadığımız coğrafiyanın və etnogenezimizin formalaşması tarixi ilə bağlı maraq doğuran təhlillər çoxdur və bütün bunlar kifayət qədər cəlbedicidir. Burada təqdim edilən Xəzər-Səlcuq, Xəzər-Macar əlaqələri ilə bağlı fəsillər də böyük maraq doğurur. Onların hamısını qısa həcmli bir yazıda şərh etmək mümkün deyil və belə bir məqsədim də yoxdur.

Sadəcə oxuculara bildirmək istəyirəm ki, bütün yüksək elmi məziyyətlərinə baxmayaraq kitab təkcə elmi tədqiqatçılar tərəfindən yox, daha geniş oxucu kütləsi tərəfindən rahatlıqla “birnəfəsə” oxuna biləcək bir dildə yazılıb. Əsərin ilkin nəşrinin rusca yazılmasının əsas səbəblərindən biri isə onun digər dillərə tərcüməsi zamanı lazımsız çətinlinliklərlə qarşılaşmamaq zərurətindən irəli gəlib. Əminəm ki, hər bir oxucu bu kitabı mütaliə etməkdən böyük zövq alacaq və müəllifin fədakar əməyini yüksək qiymətləndirəcək.

***Cavanşir FEYZİYEV,***
***fəlsəfə doktoru***